**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**XATİRƏ İSMAYIL QIZI İLYASOVA**

# XƏZƏRLƏR VƏ AZƏRBAYCAN

**İxtisas: 5503.02 -Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# AVTOREFERATI

**BAKI-2013**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin “Azərbaycan tarixi” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doкtoru, professor **Ə.İ.Muxtarova**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doкtoru, professor **Ş.F.Fərzəliyev**
Tarix üzrə elmlər doкtoru, professor **İ.M.Məmmədov**

**Aparıcı müəssisə:** Bakı Slavyan Universitetin “Azərbaycan tarixi və ictimai elmlər” kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 fevral 2013-cü il tarixli 95 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix elmləri doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının ”_25__”__05__2013-cü il tarixli iclasında saat __ 00-da olacaqdır.

Ünvan: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat “____”______________2013-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə elmlər doktoru, professor** **R.C.Süleymanov**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Türklər özünəməxsus həyat tərzi, mədəniyyət sistemi və dövlətçilik ənənəsi olan bir xalqdır. Türk həyat tərzinin, mədəniyyət sisteminin, eləcə də dövlətçilik ənənəsinin, digər xalqlar və dövlətlərlə münasibətlərinin əsaslı şəkildə öyrənilməsi günümüzün aktual problemlərindəndir.

Tarix elminə məlum olan faktlara görə, türk dövlət sistemi ayrı-ayrı istisnalar nəzərə alınmazsa, bizim eradan əvvəl III əsrin sonlarından bizim eranın XV-XVI əsrlərinə qədər dəyişməmişdir. Sülalələrin dəyişməsi dövlət sisteminə ya heç təsir etməmiş, ya da az təsir etmişdir.

Araşdırmalar göstərir ki, qədim türk dövlət strukturu türk tayfa strukturundan doğmuşdur və hətta dövlətin rütbə, titul sistemi türk qohumluq terminləri ilə üst-üstə düşür.

Dövlət xaqanın və onun ətrafında toplanmış bir qrup adamın fərmanları, rəyi və çıxardıqları qərarlarla deyil, xaqandan tutmuş sıravi əsgərə qədər hər bir türkün əzbər bilib, qeydsiz-şərtsiz yerinə yetirdiyi ilahi törə – ənənəvi xalq qanunları ilə idarə olunurdu.

Türklərin dövlətçilik ənənələrinin nəticəsi olmuşdur ki, uzun əsrlər ərzində onlar dünyada hakim mövqeyə malik olmuş və bu gün də öz mövqelərini saxlamaqdadırlar. Hətta bu müasir dünyamızda bəzən bizə yenilik kimi təqdim olunan ənənələri biz qədim türk xalqlarının tarixində müşahidə edə bilirik. Lakin qeyd etmək lazımdır ki, qədim mədəniyyətə, dövlətçilk ənənələrinə malik olmuş türklər tarix elmində kifayət qədər araşdırılmamışdır. Xəzərlər, onların siyasi-iqtisadi münasibətləri, mədəniyyəti haqqında isə Azərbaycan tarix elmində, demək olar ki, heç bir tədqiqat işi aparılmamışdır. Halbuki xəzərlərin tarixinin öyrənilməsi həm Azərbaycanın tarixi gerçəkliyi, həm də türk dünyası və onun ənənələri ilə tanışlıq üçün olduqca önəmlidir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Erkən orta əsrlər dövrünü əhatə edir. Tədqiqat işi bu dövrdə xəzər tayfalarının ictimai-siyasi və mədəni həyatının öyrənilməsinə yönəlmişdir. Burada xəzərlərin hun tayfalarının tərkibində olduğu, Xəzər xaqanlığının yarandığı, xəzər-ərəb müharibələri dövrü əhatə olunmuşdur.

**Mövzunun öyrənilmə dərəcəsi**. Qeyd etmək lazımdır ki, bu günə qədər xəzərlər haqqında bir sıra əsərlər yazılmışdır ki, onların əhatə dairəsi olduqca genişdir, belə ki, xəzərlər haqqında Avropa, şərq, rus tarixşünaslığında çox sayda əsərlərə rast gəlmək olur.

Avropa ölkələrinin tarxçilərinin xəzərlərin tarixi haqqında əsərləri çoxdur. Burada həmin tədqiqatçıların əsərlərinin təhlilini vermək mümkün deyil. Ona görə də biz yalnız kiçik xülasə ilə kifayətlənəcəyik. Xüsusilə ingilis, fransız və alman şərqşünasları eranın əvvəllərindən XVII-XVIII əsrlərə qədər türk xalqlarının tarixi haqqında külli miqdarda tədqiqatlar aparmışlar. Onların tədqiqatları e.ə. III əsrdən – hunlardan qabağa getmir.

Eramızın III-V əsrlərində Hun imperiyasının tarixi ilə alman tarixçisi F.Althaym[1] məşğul olmuşdur. Althaymın tədqiqatı əslində e.ə. III əsrdən Çin mənbələrindən məlum olan Şərqi Hun imperiyasının tarixindən başlanır və sonra da Cənub-Şərqi Avropada Qərbi Hun imperiyasının geniş təsviri ilə yekunlaşır. Müəllif bu əsərini antik, Bizans və Çin mənbələri əsasında yazmışdır. Onun əsərində hunların tərkibində olmuş tayfalar, onların yayılma arealları, bunların ictimai quruluşu və təsərrüfat həyatı ətraflı verilmişdir. Althaym yazır ki, hunlar köçəri və döyüşkən xalq idi, lakin onlarda sənətkarlıq (xüsusilə silahqayırma) çox inkişaf etmişdi. Müəllif hunların hərb texnikasından ətraflı danışır və yazır ki, hunlar şəhərlərdə yaşamasalar da, ən möhtəşəm qalaları və şəhərləri almaq qabiliyyətinə malik idilər. Müəllif Cənub-Şərqi Avropa çöllərində V-VI əsrlərdən sonra məlum olan bulqar, suvar, kəngər, peçeneq, xəzər və başqa türk etnoslarını məhz hunlara aid edir.

Hunlar haqqında ingilis tarixçisi K.D.Kordon[1] da tədqiqat aparmışdır. Onun əsərində Atillanın hakimiyyəti illərində hunların işğalları, ictimai quruluşu və imperiyanın V əsrdə tənəzzülü, onların tərkibində olmuş tayfa və başqa məsələlər verilmişdir.

Hunların tarixi haqqında O.S.Mençen-Helfenin[2] tədqiqatları da qeyd olunmalıdır. Onun əsərində hunların tarixi e.ə. III əsrdən eramızın V əsrinədək izlənilir. Qeyd edilməlidir ki, ümumiyyətlə bəzi Qərbi Avropa və rus tarixçiləri eradan əvvəlki minilliklərdə türk etnoslarının dövlət qurumlarına malik olması fikri ilə heç cür razılaşmırlar, ona görə ki onların fikrincə, Şərqi Avropada, Cənubi Qafqazda və Ön Asiyada həmin minilliklərdə türkmənşəli tayfalar ola bilməzdi. 546-cı ildə böyük bir ərazini əhatə edən Çin səddindən Qərbdə İran və Bizansa qədər uzanan Türk xaqanlığı yaranır. Bir sıra Qərbi Avropa və rus

---

[1] Altheim F. Attila und de Hunnen, Baden, 1951.
[2] Cordon C.D. The age of Attila, 1960.
[3] Maenchen-Helfen O.S. The world of the Huns. Los-Angeles, 1973.

tarixçilər türklərin tarix səhnəsinə çıxmasını məhz bu imperiya ilə əlaqələndirirlər. Yalnız ona görə ki, bu imperiyanı yaradanlar Çin mənbələrində tukyu – türk adlanır, ona uyğun olaraq «qədim türklər» dedikdə məhz VI-VIII əsrləri əhatə edən türk xaqanlıqları nəzərdə tutulur. Belə çıxır ki, eradan əvvəl qədim türklər olmamış və yalnız e.ə. III əsrdə onlar birdən-birə peyda olmuşlar. XIX əsrin sonları – XX əsrin I yarısında Avropada türk xalqlarının, o cümlədən hunların (və xəzərlərin) tarixinə dair tədqiqatlar meydana gəlir.

XIX əsrin ortalarından sonra Rusiyada hunların (xəzərlərin) tarixinə dair bir sıra araşdırmalar aparılır. Bu, əsas etibarilə Mərkəzi Asiya və Qazaxıstanın işğalı ilə bağlı idi.

Rusiyada türk xalqları tarixinə dair tədqiqatlar hələ XIX əsrin II yarısında başlansa da, bu sahədə əsas rolu sovet-rus tarixçiləri oynamışlar.

Erkən orta əsrlərdə türk xalqları tarixinin sanballı tədqiqatçılarından biri arxeoloq M.İ.Artamonovdur.[1] O, əsas etibarilə xəzərlər haqqında araşdırmalar aparmış və iki böyük monoqrafiya çap etdirmişdir. M.İ.Artamonovun əsərlərində eranın əvvəllərindən Cənub-Şərqi Avropada hunların hökmranlığından başlayaraq XI-XII əsrlərə qədərki dövr tədqiq olunur. Onun iri həcmli «Xəzərlərin tarixi» əsərində hunların III-IV əsrlərdə qərbə hərəkəti, Hun imperiyasının yaranması və 454-cü ildə Atilla öldükdən sonra süqutu, Xəzər dövlətinin yaranması və tarixi, Hun imperiyası dağıldıqdan sonra Cənub-Şərqi Avropada yaranmış utiqur, savar, peçeneq, avar və başqa türk tayfa ittifaqları haqqında ətraflı danışılır. Lakin M.İ.Artamonov hunların eramızın III-IV əsrlərində Cənub-Şərqi Avropaya gəlməsinə qədər oralarda türkdilli əhalinin yaşaması fikrini qəbul etmir. O yazır ki, əvvəllər orada irandilli əhali yaşayırdı və hunlar gələrək onları assimilyasiya etdilər. Bununla, şübhəsiz, razılaşmaq çox çətindir. Müəllif bu əsərdə xəzərlərin dövlətçilik ənənələri, mədəniyyəti və dini haqqında əraflı məlumat vermişdir.

Türk xalqlarının tarixi üzrə tədqiqatlar, artıq qeyd etdiyimiz kimi, əsasən XIX əsrin II yarısından başlanmışdır. Bu tədqiqatçılar içərisində V.V.Qriqoryev, N.A.Aristov, P.İ.Rıçkov, N.İ.Veselovski, V.R.Rozen, V.V.Radlov, V.V.Bartold, P.M.Melioranski, A.Y.Yakubovski və başqalarının adını xüsusilə qeyd etmək lazımdır. Əlbəttə, bu müəlliflər bilavasitə xəzər probleminə toxunmasalar da, türk xalqlarının

[1] Артамонов М.И. История Хазар, Л., 1962

tarixindən danışarkən xəzərlərə, xüsusilə hunlara və onların tarixinə müraciət etmiş və dəyərli fikirlər söyləmişlər.

Şərqi və Qərbi Hun imperiyalarının tarixini N.A.Bernştam və L.N.Qumilyov[2] tədqiq etmişlər. Onların əsərləri əsas etibarilə Çin və antik mənbələr əsasında yazılmışdır.

Türk xalqlarının erkən orta əsrlərdə tarixinin araşdırılması sahəsində akademik V.V.Bartoldun[3] xidməti çox böyükdür. Onun xəzərlərin mənşəyi, dili və tarixi ilə bağlı məqalələri olduqca əhəmiyyətlidir. V.V.Bartoldun ümumiyyətlə türk xalqarının tarixinə dair tədqiqatlarında qədim türk run yazılarının tarixi mənbə kimi əhəmiyyəti, Çin mənbələri və qədim türklər, Mərkəzi Asiyanın ərəblər tərəfindən işğalı, Mərkəzi Asiyanın türk tayfaları haqqında ərəb mənbələri və başqa məsələlər ətraflı izah olunmuşdur. Müəllif türk xalqlarının təşəkkülü məsələsinə toxunmur. V.V.Bartoldun tədqiqatlarında Mərkəzi Asiyanın türk xalqlarının tarixi VI-VII əsrlərdən XVII-XVIII əsrlərə qədər araşdırılmışdır. V.V.Bartold Qərbi Avropa tədqiqatçıları kimi Orxon-Yenisey türk run əlifbasının iranmənşəli olduğunu yazır. O qeyd edir ki, run yazılarında vəliəhd, şahzadə mənasında işlənən «şad» sözü fars dilindəki «şah» sözündəndir. Ümumiyyətlə, V.V.Bartoldun əsərlərində də qədim türk tayfalarının «cavanlaşdırılması» tendensiyası nəzərə çarpır. Məsələn, o yazır ki, bulqarlar və xəzərlər VI əsrdən əvvəl məlum deyildi. Halbuki qədim mənbələrdə bulqarların İrəvanda məskunlaşması e.ə. II əsrə aid edilir. Xəzərlərin adı həmin mənbələrdə II-III əsrlərdə baş verən hadisələrlə əlaqədar çəkilir.

Bununla belə V.V.Bartoldun əsərlərində diqqətə layiq elmi nəticələr də vardır və xəzərlərin tarixinin öyrənilməsində müəllifin əsərləri olduqca böyük əhəmiyyətə malikdir.

Türk xalqlarının erkən orta əsrlər tarixi L.N.Qumilyov tərəfindən araşdırılmışdır. Onun ən məşhur əsəri «Qədim türklər»[1] kitabında VI əsrdən VIII əsrin sonlarına qədərki tarixi hadisələr əhatə olunur. Mövzumuzla əlaqədar olaraq L.N.Qumilyovun «Xəzər ətrafında minilliklər»[2] əsəri də qeyd olunmalıdır. Lakin müəllifin başqa bir əsəri,

---

[1] Бернштам А.Н. Очерк истории гуннов, Л., 1951; Гумилев Л.Н. Хунну, М., 1960

[2] Бартольд В.В. Хазары, Сочинения, T.V, М., Наука, 1968

[3] Гумилев Л.Н. Древние тюрки, М., Наука, 1967

[4] Гумилев Л.Н. Тысячелетие вокруг Каспия, Баку, Азернешр, 1991

bilavasitə xəzərlərin tarixinə həsr olunmuş «Xəzəriyənin kəşfi»[3] əsəri apardığımız tədqiqat üçün xüsusilə böyük önəm daşıyır. Qeyd etmək lazımdır ki, əsərdə xəzərlərlə bağlı bir çox məsələlərə toxunulmuş olsa da, əslində müəllifin fikirləri Artamonovun fikirlərindən heç bir xüsusiyyətilə fərqlənmir. Lakin buna baxmayaraq, əsər tədqiqat işi üçün zəngin material təqdim edir.

Rus tarixçiləri kimi Türkiyə tarixçilərinin də qədim türk xalqlarının tarixinə dair bir sıra önəmli əsərləri mövcuddur.

Türk xalqlarının qədim dövr və eranın I minilliyində tarixinin tədqiqatçıları içərisində ən məşhur tədqiqatçı Əhməd Zəki Validi Toqandır. O, 1946-cı ildə nəşr olunmuş «Ümumi türk tarixinə giriş»[1] əsərində əvvəlcə skiflər, kimmerlər, saklar, quğarlar, şiraklar və başqa qədim türk tayfaları haqqında danışır. Daha sonra isə o, e.ə. III-I əsrlərdəki Şərqi Hun imperiyası və eramızın III-V əsrlərdəki Qərbi Hun imperiyası haqqında məlumat verir. Müəllif hesab edir ki, eramızın I minilliyində Cənub-Şərqi Avropada və Qafqazda yaşamış türk tayfalarının hamısını hunların eranın əvvəllərində şərqdən qərbə hərəkəti ilə bağlamaq yanlışdır, bu tayfaların bəziləri eradan əvvəlki minillikdə məlum skiflərin və sakların sonrakı nəsilləridir.

Hunlar haqqında tam tədqiqat Bəhaəddin Ögələ[2] məxsusdur. Erkən orta əsrlərdə Qara dənizin şimal sahillərində və Şimali Qafqazda yaşayan türk tayfaları Türkiyə tarixçisi Bastav Şərifin[3] tədqiqat obyekti olmuşdur.

**Dissertasiya işinin mənbə bazası.** Xəzərlərin tarixi haqqında məlumat verən mənbələr bir tərəfdən geniş, digər tərəfdən isə çox azdır. Digər xalqların, ilk növbədə Rusiyanın tarixi ilə bağlı əsərləri nəzərə alsaq, onda birincisi, yəni xəzərlər haqqında mənbələrin geniş olması daha həqiqətə uyğundur. Çox nadir hallarda ola bilər ki, qədim rus tarixi ilə bağlı əsərlərdə xəzərlər haqqında məlumat verilməsin və rus-xəzər münasibətlərinə toxunulmasın. Bizans, Ərəb xilafəti və Cənubi Qafqaz xalqlarının, xüsusilə Rusiyanın cənubunda bir-birini əvəz etmiş köçərilərin – bulqar, türk, madyar, peçenek, quğ və qıpçaq tarixini şərh edərkən xəzərlərdən yan keçmək mümkün deyil. Belə əsərlərin hamısında həmin xalqın tarixi ilə bağlı xəzərlərə müraciət edilir.

---

[1] Гумилев Л.Н. Открытие Хазарии, М., Айрис, 2007

[2] Ahmet Zeki Validi Togan, Ümumi türk tarihine giriş, I c. İstanbul, 1946

[3] Bahaəddin Ogəl, Böyük Hun imperiyası, I və II kitab, B. Gənclik,1992

[4] Bastav Şerif, Sabir türkleri, Türk tarihi qurumu, Belleten 5, 1941.

Bilavasitə xəzərlərin tarixinə həsr olunmuş, onların tarixinin bütün dövrlərini əhatə edən əsərlərin sayı çox azdır, lakin xəzər tarixinin ayrı-ayrı məsələlərinə həsr olunmuş əsərlər isə nisbətən çoxdur. Bu məsələlərin içərisində alimlərin diqqətini cəlb etmiş bir sıra məqamlar mövcuddur: xəzərlərin etnik mənsubiyyəti və onların dili haqqında bir sıra məsələlər. Bu məsələ ilə bağlı xəzər qalası Sarkelin adı mühüm rol oynamışdır. Lakin qeyd etmək lazımdır ki, bu qalanın yeri haqqında da müəyyən ziddiyyətli fikirlər mövcuddur. Xəzərlərin ibri dilini qəbul etməsi haqqında fikirlər də böyük maraq doğurur. Xəzərlərin yəhudiliyə üz tutması orta əsrlər dövrü üçün qeyri-adi bir hadisə idi, belə ki, bu dövrdə yəhudilər və onların dini təqib edilirdi.

Bizans-xəzər və rus-xəzər münasibətlərinə, xüsusilə xəzərlərin Krım işlərində roluna, habelə slavyanların maarifçisi Konstantinin (Kirill) Xəzər ölkəsinə missiyası və rusların Xəzər dənizinə yürüşlərinə həsr olunmuş əsərlər də kifayət qədərdir. Bu, xəzər tarixinin əsas mövzularıdır və xəzərlərlə bağlı ədəbiyyatın böyük bir hissəsi bunların ətrafında cəmləşir. Xəzərlərin tarixi ilə bağlı digər məsələlərə daha az diqqət yetirilmiş və elə məsələlər də vardır ki, onlar ümumiyyətlə monoqrafik planda tədqiq edilməmişdir.

Xəzər tarixşünaslığının belə vəziyyəti müəyyən dərəcədə mənbələrin vəziyyəti ilə izah oluna bilər. Bu əsərlər öz dili və xarakterinə görə son dərəcə müxtəlifdir.

Xəzərlərin tarixi üzrə mənbələrdən yalnız iki yazı yəhudi-xəzər mənşəlidir. Onlardan biri X əsrin ortalarında ispan əyanı, yəhudi Xasday ibn Şafrutun sorğusuna cavab olaraq xəzər çarı Yusifin göstərişi ilə yazılmışdır (954 və 961-ci illər arası). Bu məktubda Yusif xaqan özündən 340 il əvvəl musəviliyi qəbul edən Bulan xaqandan tutmuş özünə qədər hökmranlıq edən 14 xaqanın adını çəkir. Xəzərlərin ixtiyarında olan Krımın on bir və ya on iki şəhəri, o cümlədən kiçik şəhərləri sadalanır.

Latın və yunan mənbələrində xəzərlər haqqında məlumat daha əhatəlidir. Bizans imperiyası uzun müddət Xəzər xaqanlığı ilə ittifaqda olmuşdu.

V əsr müəllifləri içərisində xəzərlərlə bağlı mühüm məlumatlara Zosima, xüsusilə Prisk Paniyskinin əsərlərində rast gəlinir. Zosimanın «Yeni tarix» əsəri e.ə.270-ci ildən eranın 410-cu ilinə qədər olan dövrü əhatə edir. Onun müəllifi Konstantinopolda maliyyə administrasiyasında görkəmli yer tutur və siyasət haqqında geniş biliyə malik idi. Prisk Panili – hüquqşünas və fəlsəfə müəllimi – senator

Maksimiliompinin 488-ci ildə hunlarda səfirlikdə olduğu zaman katibi idi. Onun bu səfirlik haqqında hesabatında hunlara, habelə Şərqi Avropada yaşamış tayfalara aid mühüm məlumatlar öz əksini tapmışdır. Bu dövrü öyrənmək üçün böyük əhəmiyyətə qot krallarını mədh etmək məqsədilə qot tarixçisi İordan tərəfindən 551-ci ildə yazılmış «Qetlərin mənşəyi və əməlləri haqqında» əsəri malikdir. Daha erkən tarixi əsərlərdən götürdüyü məlumatlar əfsanələr və rəvayətlərlə qarışdırmasına və qetləri qotlarla səhv salmasına baxmayaraq İordan IV-VI əsrlər Şərqi Avropa tarixi üzrə bir sıra mühüm məlumatlar verir.

VI əsrin birinci yarısına aid mötəbər məlumatlar Komes Marsellinin latın dilində yazılmış xronikasında əks olunmuşdur. O, Yustinianın taxta çıxana qədər katibi olmuş və rəsmi sənədlərdən istifadə etmək imkanına malik olmuşdur. Buna görə onun qısa məlumatları böyük dəqiqlikləri ilə seçilir. Təəssüf ki, Şərqi Avropada baş vermiş hadisələr onun diqqətindən kənarda qalmışdır və onun əsəri yalnız bununla dolayısı yolla bağlı məsələlərin dəqiqləşdirilməsi üçün önəmlidir.

Xəzərlər haqqında məlumat verən ən görkəmli Bizans tarixçilərindən biri Prokopi Kesarili (V əsrin sonu – 560-cı ildən sonra) olmuşdur. Məşhur Bizans sərkərdəsi Velizariyanın dəftərxana rəisi kimi o, bir çox hərbi yürüşlərdə iştirak etmiş və bunun sayəsində müxtəlif xalqlarla tanış olmuşdu. Onun «Yustinianın müharibələr tarixi» əsəri hadisələrin dəqiq təsviri və mühakimələrin obyektivliyi ilə seçilir. Prokopinin əsərləri Şərqi Avropa xalqları haqqında geniş məlumatlara malikdir və xəzərlər barədə xüsusilə əhəmiyyətlidir.

Prokopinin davamçısı Aqafiy (536-582) şair və natiq olmuşdur.(Aqa) Onun «Yustinianın şahlığı haqqında» əsəri yalnız yeddi ili əhatə edir, 552-ci ildən 558-ci ilə qədər, lakin burada böyük yer Lazikadakı döyüşə verilmişdir və bununla bağlı olaraq Qafqaz və Şimali Qara dəniz xalqları haqqında bir sıra məlumatlar öz əksini tapır. Sonrakı hadisələr imperator administrasiyasında yüksək vəzifə tutan və buna görə də yaxşı məlumatı olan Menandr Protiktorun əsərində işıqlandırılır. Bu əsər Yustinianın hakimiyyətinin son illərindən I Tiberinin hakimiyyətinə qədər olan dövrü əhatə edir. Təəssüf ki, bu əsər tam şəkildə saxlanılmamışdır və yalnız ayrı-ayrı hissələrə görə məlumdur. Lakin bu hissələr Avrasiya düzənliklərinin köçəri tayfaları haqqında ən maraqlı və ən mühüm məlumatları əhatə edir. İmperator Mavrikiyanın hakimiyyəti İrakli hakimiyyəti dövründə yaşamış (610-641) Feofilakt Simokatta tərəfindən (582-602) təsvir edilmişdir. Burada da xəzərlərə aid geniş və dəyərli məlumatlar əks olunmuşdur.

VII-VIII əsrlər Bizans tarixşünaslığında o qədər də yaxşı əks olunmamışdır. Bu və bundan sonrakı dövr üçün əsas mənbələri xronikalar təşkil edir və bunlara əsasən 810-815-ci illərdə yazmış Bizans rahibi Feofan və onun müasiri patriarx Nikiforu (806-815) aid etmək olar.

Bunların içərisində Nikiforun 602-769-cu illəri əhatə edən «Qısa tarix» əsəri xüsusi şöhrətə malik idi. Hər iki müəllif bizim dövrə gəlib çatmayan VII-VIII əsr mənbələrindən istifadə etmişlər və hətta bəzi hallarda onların məlumatları tamamilə üst-üstə düşür. IX əsrin ortalarına Qeorqiy Amartolun xronikası aiddir. Müəllif Malala, Feofan və Nikiforun əsərlərinə əsaslanmış və digər mənbələrdən əlavələr etmişdir.

Xəzərlərin tarixi üzrə yazılı mənbələrin böyük bir hissəsini ərəb və fars dilli mənbələr təşkil edir. Məlumdur ki, ərəblər xəzərlərlə Cənub-Şərqi Qafqaza sahib olmaq uğrunda güclü rəqiblər kimi görüşmüşdülər.

Ərəb müəllifləri arasında həm zamana, həm də əhəmiyyətinə görə birinci yeri şimal-qərbi İranda Cibal vilayətində dövlət məmuru olmuş Əbulqasım Übeydullah ibn Allah ibn Xordadbehə aid etmək lazımdır. Onun «Təriqətlər və məmləkətlər kitabı» əsəri dəqiq topoqrafik və tarixi məlumatlarla əhatə olunan qısa coğrafi vəsaitdir. Bu təxminən 885-886-cı ildə yazılmış və bizə ixtisar olunmuş və düzəlişsiz nüsxədə gəlib çatmışdır.

IX əsrin digər mühüm mənbəsi –böyük ərəb tarixçisi və şairi Əbulabbas Əhməd ibn Yəhya Cabir əl-Bəlazurinin «Ölkələrin işğalı» kitabıdır. Bu kitab da yalnız ixtisarlarda məlumdur, lakin onun tam mətni XIII əsrdə Yaqut tərəfindən coğrafi lüğətdə istifadə edilmişdir. Bəlazuri bu kitabı dəli olana qədər və ölümündən bir qədər əvvəl 892-893-cü ildə yazmışdır. Xəzərlərlə bağlı bu əsərin ərəb-xəzər müharibəsinə həsr olunmuş hissəsi xəzərlərin o dövrdəki tarixini öyrənmək üçün çox əhəmiyyətlidir.

IX əsrə aid başqa ərəb müəllifi – Əhməd ibn Əbu Yəqub ibn Cəfər ibn Vəhb ibn Vadix əl-Yəqubi müxtəlif ölkələrdə (Xorasanda, Hindistan və Misirdə) yaşamışdır. Yəqubinin «Tarix» əsəri kiçik həcmli olmasına baxmayaraq xəzərlər haqqında bir çox maraqlı məlumat verir.

X əsrin əvvəlində (902) İbn əl-Fəqih təxəllüslü Əbu Bəkr Əhməd ibn Məhəmməd ibn İshaq əl-Həmədani «Ölkələr tarixi» adlı coğrafi əsərini yazmışdır. 1923-cü ilə qədər elmə bu əsərin yalnız ixtisar olunmuş nüsxəsi məlumdur. Həmin ildə Məşhəd məscidinin kitabxanasında

əlyazma toplusu tapılmışdır və digər əsərlərlə yanaşı burada İbn əl-Fəqihin əsərinin ikinci hissəsi də tam şəkildə vardı. Burada o, öz sələflərinin əsərlərindən istifadə etmiş və özündən də müəyyən əlavələr etmişdir. Bu işdə xəzərlər haqqında məlumatlar azdır, onlar haqqında daha çox məlumatı X əsrin əvvəllərinə aid digər ərəb müəllifi – Əbu Əli Əhməd ibn Ömər ibn Ruste vermişdir. Onun «Qiymətli cəvahirat» əsəri müxtəlif məsələlər üzrə ensiklopedik əsərdir, lakin bizə onun Şərqi Avropa haqqında məlumatları əhatə edən bir cildi (7-ci) gəlib çatmışdır.

X əsrdə yalnız coğrafi əsərlər deyil, həm də çox önəmli tarixi əsərlər meydana gəlir. Bu əsərlərin müəllifləri içərisində böyük ərəb tarixçisi Əbu Cəfər Məhəmməd ibn Cerir ət-Təbəri – 839-cu ildə Amulda anadan olmuşdur – xüsusi yer tutur. Mənşə etibarilə iranlı olan Təbəri klassik ərəb təhsili almış, çoxlu səyahətlər etmiş və ömrünün sonuna yaxın Bağdadda yerləşərək özünü elmə və müəllimliyə həsr etmişdir. O, 923-cü ildə vəfat etmişdir. Təbərinin müxtəlif sahələr üzrə qalmış əsərləri içərisində «Peyğəmbərlər və şahların tarixi» əsəri xüsusi əhəmiyyətə malikdir. Bu əsər dünyanın yaranışından başlayaraq ərəblərə məlum olan əsas müsəlman mədənyyətli xalqların tarixinə qədər olan böyük bir dövrü əhatə edən ümumdünya tarixidir. Bu əsərdə xüsusilə İranın tarixi tam təfərrüatı ilə təsvir edilmişdir.

Xəzərlərin tarixinin öyrənilməsində farsdilli mənbələrin də böyük əhəmiyyəti vardır. IX əsrdə Orta Asiyada paytaxtı Buxara şəhəri olan müstəqil Samanilər dövləti meydana gəldikdə, bu şəhər mədəniyyət mərkəzinə çevrildi. Burada bir çox elmlər, xüsusilə tarix və coğrafiya elmi inkişaf etməyə başladı. Coğrafiya sahəsində ilk farsdilli əsərlərdən biri X əsrin əvvəlində Samani şahının vəziri Əbu Abdulla Məhəmməd əl-Ceyhani tərəfindən yazılmış və «Təriqətlər və şahlar kitabı» adlanan əsərdir. Onun əlyazması bizim dövrə gəlib çatmamışdır, lakin məzmunu sonrakı dövrdə yazılmış əsərlərdə verilən sitatlara görə məlumdur.

982-983-cü ildə naməlum müəllif tərəfindən tərtib olunmuş «Hüdud əl-aləm» (Xud) adlı digər farsdilli coğrafiya əsəri də bizim dövrə qədər qalmışdır. Onun yeganə əlyazması 1892-ci ildə Buxarada A.Tumanski tərəfindən aşkar edilmişdir. Bu əsər üçün əsas mənbələrdən biri Ceyhaninin əsəri olmuşdur. Belə mühüm əsərdə yalnız fars və ya ərəb deyil, ümumiyyətlə, orta əsr ədəbiyyatında bu tipli əsərlərin tərtibi sistemindən doğan bir çox qarışıqlıq və qeyri-dəqiqlik mövcuddur. Bunlarda lazımi tənqidi yanaşma olmadan müxtəlif mənbələr və müxtəlif dövrlərə aid məlumatlar mexaniki olaraq təsvir edilir.

Hələ 963-cü ildə Təbərinin əsəri fars dilinə tərcümə edilmişdir. Əsər, çox güman ki, ilk dəfə Samani vəziri Əbu Əli Məhəmməd Bələmi tərəfindən tərcümə edilmişdir. Bu tərcümədə orijinalın ərəb mətnində saxlanılmış cildlərində mövcud olmayan məlumatlara təsadüf olunur. Tərcüməçi, görünür, Təbərinin əsərinin tam mətnindən və ola bilsin, digər tarixi əsərlərdən də istifadə etmişdi. Buna görə Bələminin əsərinin xüsusi əhəmiyyəti vardır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi xəzərlərin ictimai-siyasi vəziyyəti, Xəzər-Azərbaycan münasibətlərini araşdırmaqdır və bu məqsədə nail olmaq üçün tədqiqat işi qarşısında aşağıdakı vəzifələri qoymuşdur: xəzərlərin türk mənşəli olması haqqında dəlillər toplamaq; xəzərlərin yayıldığı əraziləri müəyyənləşdirmək; xəzər xaqanlığının yaranması və əhatə etdiyi əraziləri göstərmək; xəzərlərn türkdilli və qeyri-türkdilli xalq və tayfalarla münasibətlərini araşdırmaq; xəzərlərin Şimali Qafqaza yürüşləri haqqında məlumatları toplamaq; xəzərlərin Cənubi Qafqaza yürüşləri haqqında məlumatları toplamaq; xəzər-ərəb müharibələri və onların Azərbaycan üçün nəticələrini vermək; xəzər mədəniyyəti; xəzər mədəniyyətinin digər xalqların mədəniyyətinə təsirini aydınlaşdırmaq.

**Dissertasiya işinin metodoloji əsası.** Tədqiqat orta əsrlər dövrünü əhatə etdiyi üçün burada istifadə olunan metod və üsullar da fərqli və müxtəlif olmalıdır. Xəzərlər haqqında məlumatı müxtəlif dilli mənbələrdən aldığımızdan birinci növbədə müqayisəli metod əsas götürülmüşdür. Xəzərlər haqqında verilən məlumatlar müqayisə edilmiş, onların təhlili aparılmış və ümumiləşdirilərək nəticələr çıxarılmışdır. Müqayisəli metoddan əlavə, bu tədqiqat zamanı təsviri, induktiv, deduktiv üsullardan da istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi ilk növbədə onunla izah olunur ki, xəzərlərin ictimai-siyasi vəziyyəti, Xəzər-Azərbaycan münasibətləri ilk dəfə olaraq sistemli şəkildə öyrənilmiş və tədqiqat obyektinə çevrilmişdir.

Bununla yanaşı, tədqiqatın elmi yenilikləri aşağıdakılardır: xəzərlər haqqında məlumat verən mənbələrin təsviri; xəzərlərin türkdilli və qeyri-türkdilli tayfa və xalqlarla münasibətlərinin öyrənilməsi; xəzərlərin Qafqaza yürüşlərinin səbəb və nəticələri; xəzərlərin Azərbaycana yürüşləri və onların nəticələri; ərəb-xəzər müharibələrinin Azərbaycan üçün nəticələri; xəzər mədəniyyəti və onun Azərbaycan mədəniyyətinə təsiri.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat elə bir mövzuya həsr olunmuşdur ki, burada müxtəlif dövrlərlə bağlı bir neçə xalq və dövlətin tarixi öz əksini tapmışdır. Burada əgər bir tərəfdən xəzərlər və Azərbaycan münasibətləri öyrənilirsə, digər tərəfdən, xəzərlərin digər türk tayfaları, eyni zamanda o dövrdə Azərbaycanın ictimai-siyasi və mədəni vəziyyəti və Azərbaycanın digər dövlətlərlə əlaqələri araşdırılır və bu baxımdan əsər gələcəkdə tədqiqata cəlb edilə biləcək nəzəri materiallar təqdim edir.

Tədqiqatın belə geniş əhatəsi onun Türk və Qafqaz xalqlarının tarixi, mənbəşünaslıq, Azərbaycanın eranın IV-X əsrlərə aid tarixi və bununla bağlı bir sıra digər fənlərin tədrisi zamanı istifadə olunmasına imkan verir.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasında müzakirə edilib və müdafiəyə təqdim olunmuşdur. Dissertasiyanın mövzusu Azərbaycan Milli Elmlər Akademiyası Humanitar və İctimai Elmlər Bölməsi Tarix Üzrə Problem Şurasında 2008-ci ildə təsdiq edilmişdir. Tədqiqatın mövzusuna aid doqquz məqalə çap olunmuşdur. Onlardan biri xaricdə çap olunmuşdur. İkisi isə 2011-ci ildə Bakıda keçirilən "Türk dünyası: dünəni və bu günü" Beynəlxalq elmi konfrans və 2012 –ci ildə Bakıda keçirilən "Dərbənd şəhərinin tarixi" Beynəlxalq elmi konfransın materiallarında getmişdir. Məqalələrdə dissertasiyanın məzmunu öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılmış, onun xronoloji çərçivəsi və öyrənilmə səviyyəsi şərh edilmiş, tədqiqatın məqsədi, vəzifələri və metodoloji əsası müəyyənləşdirilmiş, işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti göstərilmişdi.

**"Xəzərlər. Xəzər xaqanlığının yaranması"** adlanan birinci fəslin ilk paraqrafı "Xəzərlərin mənşəyi və müstəqil tayfa ittifaqı kimi formalaşması" probleminin tədqiqinə həsr olunmuşdur.

Hun imperiyası dağıldı və özündən sonra tarixdə böyük iz qoydu. Hunların tərkibində olan türk tayfaları sonrakı əsrlərdə Cənub-Şərqi Avropanın tarixində mühüm rol oynadılar və həmn xalqların etnogenezini yeni səmtə istiqamtləndirdilər.

Qərbi Hun imperiyasının tarixi qədim türklərin tarixində mühüm mərhələ təşkil edir. Az sonra bu imperiyanın xarabalıqları üzərində Bolqar, Suvar, Avar və Xəzər xaqanlıqları təşəkkül tapdı.

Bizans yazıçıları adətən xəzərləri türklərə aid edirdilər, ərəb müəllifləri də onları türk hesab edirdilər. Xəzərlər isə özləri özlərini mənşəyə görə uqr (uqor), avar, quz, barsil, onoqur, bulqar və savirlərlə qohum hesab edirdilər.

Xəzərin Çin versiyası – ko-sa-nın uyğur tayfası kesadan tayfa adı ilə çox oxşar olması əsasında bəzi tədqiqatçılar xəzərləri uyğurlara aid edirlər və hesab edirlər ki, onlar hunlarla birlikdə və ya onların ardınca VI əsrdə Avropada görüşmüşlər. Lakin xəzərləri uyğurlardan daha çox uqorlarla bağlamaq daha əsaslıdır. Əgər xəzər adı türk əsası «kaz» - köçmək sözündən mənşəyini götürürsə, onda həmin əsasdan[1] və xəzərlərdən qətiyyən asılı olmadan uyğurların bir hissəsinin oxşar adı meydana gələ bilərdi. Hər halda güman etmək olar ki, şah Yusifin sadaladığı tayfalarla yaxşı münasibətdə idi, onun o tayfalarla qohumluğu (mənşə ümumiliyinin əlamətinə görə) yəqin ki, uqorların onların formalaşmasında oynadığı roldan ibarətdir. Dilə görə xəzərlər bulqarlarla yaxındır. Bu barədə qətiyyətlə ərəb müəllifləri xəbər verir. Məsələn, əl-İstəxri, onun ardınca ibn Hauqal bildirirlər: bulqarların dili xəzərlərin dilinə oxşayır[2] .

---

[1] Артамонов М.И. История Хазар, Л., 1962, с.114

[2] Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, Elm, 1974, s.115

Xəzərlər haqqında mötəbər məlumatlar VI əsrdən erkən dövrlərə gedib çıxır. Ərəb müəllifləri xəzərlər haqqında onların ərəblərlə görüşünə qədər pəhləvi mənbələrinə gedib çıxan müəyyən məlumatlar verir, lakin Təbəridə I Şapura (240-271) qarşı müharibə aparmış Yulian imperatorun ordusunun tərkibində xəzərlər haqqında qeyd, şübhəsiz, anaxronist xarakter daşıyır. İranın xəzərlərlə mübarizəsinin başlanmasını ərəb yazıçıları şah I Qubadın hakimiyyəti dövrünə (486-531), yəni İranın şimal sərhəddində ən güclü tayfanın savirlər olduğu zamana aid edirlər. IX əsrin məşhur ərəb tarixçisi Bələzurinin verdiyi məlumata görə, bu şahın hakimiyyəti dövründə xəzərlər Curzanı (Gürcüstan) və Arranı (Albaniya) tutdular. Qubad onları geri çəkilməyə məcbur etdi və Araz və Şirvan arasındakı vilayəti tutaraq Barda (Bərdə) şəhərini saldı, «bütün ölkənin baş şəhəri və xəzərlərin məskunlaşdığı Qəbələni saldı[1]. Sonra o, Şirvan və Allan (Dəryal) qapıları arasındakı vilayətdə çiy kərpicdən hasar düzəltdi və bütün ölkə boyu 360 şəhər saldı ki, Bab-əl-əbvab tikildikdən (Dərbənd) sonra tənəzzülə uğradı.

Kesarili Prokopiy Qubadın öz dövlətinin şimal vilayətlərində 504-cü ildən aparmalı olduğu davamlı müharibələr haqqında məlumat verir, lakin kiminlə apardığını demir. Azərbaycan şimal işğalçılarından 536-cı ildən erkən olmayan dövrdə təmizlənmişdi. Ərəb müəlliflərinin verdiyi məlumatları nəzərə salsaq, Qubadın şimal düşmənlərini xəzərlər hesab etmək lazımdır. Lakin savirlər haqqında kifayət qədər geniş məlumat verən VI əsr bizanslı yazıçılar bu dövrdə xəzərləri tanımırlar. Ərəb müəlliflərinin xəzərlər haqqında sonrakı məlumatları Xosrov Ənuşirəvanın dövrünə (531-579) aiddir və onlar tərəfindən Dərbəndin qüdrətli qalalarının tikilməsi ilə əlaqələndirilir[2].

Xəzər dənizi boyunca dəniz və dağlar arasında keçidləri bağlamaq üçün qurulmuş çoxlu sayda istehkam və müdafiə xətlərinin qalıqları saxlanılmışdır. Abşeron yarımadasından şimala doğru, dağların dəniz sahilinə çox yaxınlaşdığı yerdə suyun cəmi 1,75 km-liyində yerləşən və Beş-Barmaq adı ilə məşhur olan ən ucqar qayanın zirvəsində Xızır-Zində (canlı Xızır) müqəddəs yeri adlanan yerin xarabalıqları, enişli yayla və dağın ətəyində kiçik daşlardan tikilmiş divar və qalaların xarabalıqları qalmışdır. Dağın ətəyindən dənizə doğru bir-birindən 220 m aralıda yerləşən iki paralel gilli təpə-bənd uzanır. Onların arasındakı

---

[1] Баладзори. Книга завоевания стран. Пер.П.К.Жузе. Баку, 1927, с.116
[2] Артамонов М.И. Göst. əsəri, s.117

arada üzərində qab-qacaq qırıqları və bişmiş kərpic qırıntılarına rast gəlinir ki, bu da burada məskənin olduğunu göstərir. Çox güman ki, bu, İbn Xordadbehin qeyd etdiyi Şirvan qayalarındakı Bacavan şəhəri olmuşdur[1].

Böyük qalaların tikilməsi, hərbi məskənlərin salınması və fars dövlət sistemi ilə Qafqazın yerli tayfalarını cəlb etməklə Sasanilər öz dövlətlərinin ən mühüm və ən zəngin əyalətlərindən biri üzərində – Azərbaycanda – hakimiyyətini möhkəmləndirir və bu vilayəti güclənən şimal xalqlarının işğalçı hücumlarından qoruyurdular. Bu xalqlar içərisində getdikcə daha böyük rola xəzərlər malik idi.

Dərbənd istehkamının Xosrov Ənuşirəvan tərəfindən tikilməsi vaxtı bu şahın dövründə Qafqazda mövcud tarixi situasiyanı nəzərə almaqla müəyyən olunur. Onun hakimiyyətinin birinci yarısı demək olar ki, fasiləsiz olaraq Bizansla müharibələrdə keçmişdir və bu müharibə İranın diqqətini şimal sərhəddindən o qədər yayındırmışdı ki, savirlər-xəzərlər Çoranı tutdular və Şimali Albaniyaya sahib oldular.

Birinci fəslin ikinci paraqrafı "**Xəzər xaqanlığının yaranması və ilk dövrləri**" adlanır**.** Bu paraqraf adından da göründüyü kimi, Xəzər xaqanlığı dövrünün öyrənilməsinə həsr olunmuşdur.

VII əsrin II yarısında Xəzər dövləti Bulqar dövləti kimi türküt xaqanlığının əyaləti deyildi. Artıq başında hakim sülalə duran müstəqil dövlət kimi formalaşmışdı. Lakin bu sülalə yerli deyil, türküt mənşəli idi və türküt xaqanlığının bütün köçəri aləm üzərində ağalıq iddialı ənənəsini saxlayırdı.

Təxminən VII əsrin ortalarında Rusiyanın Avropa hissəsinin çöllərində iki müstəqil siyasi qurum mövcud idi: Xəzər və Bulqar. Etnik tərkibinə görə hər ikisi yaxın qohum idilər, hər ikisi qüdrətli Türküt imperiyasının parçaları idi və hər ikisi türküt mənşəli sülalələr tərəfindən idarə olunurdu. Lakin onlardan birincisi Aşina nəslindən olan sülalə ilə birlikdə türküt dövlətinin dövlətçilik ənənəsi və beynəlxalq nüfuzunu saxlamışdı və onun əvvəlki qüdrətini bərpa etməyə çalışırdı, ikincisi isə – o dövrə qədər uzun müddət bir-birilə mübarizə etmiş və tarixən bir-birilə az bağlı olan tayfalardan təşkil olunmuşdu – uzun müddət qalmadı və tezliklə bir neçə yerə parçalandı.

[1] Ибн Хордадбех. Книга путей и стран. (Ərəb dilindən rus dilinə tərcümə, şərhlər, tədqiqat, adlar göstəricisi və xəritələr Nailə Vəlixanlınındır, Bakı, Elm, 1986), c. 118

Onun tərkibinə daxil olan tayfaları birləşdirmək tezliklə gənc Xəzər dövlətinin ilk işinə çevrildi.

Qərbi Türküt xaqanlığından ayrılaraq Xəzər dövləti türküt xaqanlığının varisi qismində rolunu yalnız qonşu tayfaları, ilk növbədə xəzərlərə qohum olan, lakin onlarla düşmənçilik edən bulqarları birləşdirmə hesabına öz qüvvələrini sürətlə artırmaq vasitəsilə saxlaya bildi. Xəzər çarı Yusifin məktubunda bulqarlar haqqında Xəzər xaqanlığının başlanğıcı kimi danışılır.[1]

Bolqarlar xəzərlərə güclü, lakin pərakəndə müqavimət göstərdilər. Çox güman ki, mübarizədə daha böyük fəallığı Asparux göstərdi. Volqa yaxınlığında bolqarlar xəzərlərdən iki zərbə aldılar. Məğlub olan bulqarların bir hissəsi Batbayın başçılığı altında təslim oldu və xəzərlərin tabeliyində olan Kuban bolqarlarının qrupunu təşkil etdilər. Bu bolqarlar sonradan «Qara bulqarlar» adı ilə məşhurlaşdılar ki, bu da onların tabelik vəziyyətilə uyğun gəlirdi. Onlar haqqında xatirə bu günə kimi Şimali Qafqazın mərkəzi hissəsində məskunlaşmış xalqlardan birinin adında – balkar – qalmışdır. Xəzərlərə tabe olmaq istəməyən bulqarlar öz ölkələrindən qaçdılar, bir hissəsi şimala – Volqa boyunca yuxarı və burada sonradan Volqa Bulqarıstanı yarandı, digər hissəsi isə – qərbə Bizans imperiyasının sərhədlərinə qaçdı. Sonuncuları ora Asparux apardı.

Təxminən 660-cı ildə xəzərlər tərəfindən təqib olunan Asparuxun ordusı Dunayda göründü və çayın deltasında möhkəmləndi. Bulqarlar sağ sahilə keçəndə imperator Konstantin IV Poqonat (668-685) onları qarşıladı və əvvəlcə onları Dunaya sıxışdırdı, lakin sonra xəstələndi və ordunu tərk etdi. Yunanların dediyinə görə, bulqarlar Miziyaya (Dobrucu) soxuldular və tezliklə Dunay və Balkanlar arasındakı bütün ölkəni tutdular, burada yaşamış slavyan tayfalarını tabe etdilər, qismən isə onları sıxışdırdılar.

Asparux ordusunun Dunayın o tərəfinə çəkilməsi xəzərlər və Azov-Qara dəniz bolqarları arasındakı mübarizənin sonu oldu. VIII əsrə kimi xəzərlər Volqa-Kama bolqarları üzərində də hökmranlıq edirdilər. Təəssüf ki, xəzərlərin Volqa Bulqariyası üzərində hökmranlıq dövrü qeyri-müəyyən qalır və həmçinin əvvəlki tarixlərində xəzərlərlə sıx bağlı olan və müəyyən hissəsi Dağıstanda qalmış və xəzərlərlə birləşmiş savirlər-suvar-çuvaşların bu ölkənin əhalisinin tərkibinə necə daxil olduğu da naməlumdur.

[1] Артамонов М.И. Göst. əsəri, s.28

Güman etmək lazımdır ki, VII əsrin 70-ci illlərinə qədər xəzərlərin hakimiyyəti yalnız Azov-Xəzər dənizləri arası düzənliklərə deyil, Krımın da böyük bir hissəsi daxil olmaqla bütün Şimali Qara dəniz sahilinə yayılmışdı. Çar Yusifin məktubunda deyilir ki, təxminən VII əsrin orta onilliklərində yalnız müstəqil Xəzər dövlətinin yaranması deyil, həm də onun hakimiyyətinin Şərqi Avropanın böyük bir hissəsinə yayıldığı dövr idi.

Ərəblərin xəzərlərlə VII əsrin ortasında toqquşması az əhəmiyyətli epizod idi, başqa sözlə, gələcəkdə kəskin rəqiblərə çevriləcək tərəflər arasında ilk tanışlıq idi. Ərəblər başa düşdülər ki, Qafqazdan şimala doğru yerləşən ölkələrin işğalı çətin işdir, xəzərlər isə öz növbəsində cənub sərhədlərində yeni, döyüşkən və təcavüzkar düşmənin meydana gəlməsinin nə qədər təhlükəli olduğunu hiss etdilər. Ərəblərin ilk hücumlarını dəf edib xəzərlər yalnız bir neçə ildən sonra rəqiblərinin Cənubi Qafqazda qənimətindən yağlı bir tikə qoparmaq imkanını hiss etməyə başladılar. Bu işdə ilk təşəbbüskar kimi Cənubi Qafqaza ən yaxın olan, Şimali Dağıstanda xəzərlərdən asılı olan və tarixdə «Hun çarlığı» adı ilə məşhur olan siyasi qurum çıxış etdi [1].

VII əsrin III rübündə qərbdə İberiya, şimalda Dərbəndlə həmsərhəd olan, cənubda Araza qədər uzanan Albaniyanın hökmdarı Cavanşir (636-669) idi. O, İranın ərəblərlə müharibəsində iştirak etmişdi, lakin Sasanilərin ümidsizliyinə inanıb öz vətəninə qayıtdı və Partav şəhərində fars qarnizonunu dağıdaraq qısa müddət ərzində öz ölkəsinə müstəqillik qazandırdı. Lakin VII əsrin ortalarına yaxın burada ərəblər yenidən görünür. Alban knyazları işğalçıların hakimiyyətini qəbul etməyə məcbur oldular, lakin bu uzun çəkmədi. 656-cı ildə xəlifə Osman öldürüldü və xilafətdə hakimiyyət uğrunda daxili mübarizələr başlandı ki, bu da ərəblərin Cənubi Qafqazdakı mövqelərinin itməsinə səbəb oldu. Cənubi Qafqaz feodalları yenə Bizansın tərəfinə keçdi. Onlarla birlikdə alban knyazı Cavanşir də Bizans imperatoru II Konstantini öz süzereni qəbul etdi və bunun qarşılığı olaraq bütün Albaniyanın hakimi oldu.

Çox güman ki, Cənubi Qafqazdakı qeyri-sabit vəziyyətlə xəzərlərin burada görünməsini əlaqələndirmək lazımdır. Təxminən 662-ci ildə onlar Dərbənd vasitəsilə Albaniyaya soxuldular, lakin Cavanşir tərəfindən qarşılandılar. Onların bu gəlişi qarət və qənimət məqsədi güdürdü. 664-cü ildə hücum təkrarlandı, lakin bu hücum daha geniş

---

[1] Артамонов М.И. Göst. əsəri, s.180

idi. Kür vasitəsilə Araz çayının sahilinə qədər gəlmiş hunlar çoxlu sayda əsir və mal-qara ələ keçirtdilər. Hun çarı ələ keçirtdiyi qənimətlə qane olmadı və alban çarı ilə razılaşmağa çalışdı və ona danışıqlar üçün görüşmək təklif etdi. Görüş baş tutdu və danışıqlar sülh və alban knyazının «hun çarı»nın qızı ilə nigahı ilə qurtardı. Yeni qohum Albaniyada tutduğu saydan 1200 əsiri, 120000 baş mal-qara, 7000 atı Cavanşirə qaytardı. Bu artıq adi bir hücum deyildi, Albaniyanı hunlardan asılı vəziyyətə salmaq məqsədilə edilmiş bir müharibə idi.

Ərəb mənbələri hunları xəzərlərlə eyniləşdirirlər. X əsrin I yarısına aid ərəb yazıçısı Məsudi Hun çarlığını Cidan (yəni hun) çarlığı adlandırır. Onun sözlərinə görə, bu, bu ərazilərdə, yəni Şərqi Qafqazda mövcud şahlıqların ən qüdrətlisi idi. Bab-əl-əbvabın (Dərbənd) sakinləri qonşuları tərəfindən gələn bəlalara dözürdülər. Bu çarlığın paytaxtı kimi o, Səməndər şəhərini qeyd edir. Onun dövründə bu şəhər xəzərlərlə məskunlaşmışdı (944-cü ildə yazır), əvvəlki dövrdə isə xəzərlərin paytaxtı olmuşdu [1].

VII əsrdə Xəzər xaqanlığının tarixi haqqında çox az məlumat vardır. Buna görə etnik cəhətdən yalnız xəzərlərlə deyil, Xəzər xaqanlığının tərkibinə daxil olmuş digər bulqar tayfalarla qohum olan hunlar haqqında kifayət qədər təfsilatlı məlumatların böyük əhəmiyyəti vardır.

Şimali Qafqaz hunları haqqında deyilən məlumatlar xəzərlər və onlara tabe olan tayfalar arasında qarşılıqlı əlaqələri və eyni dərəcədə ümumilikdə Xəzər xaqanlığının sosial quruluşu haqqında mühakimə yürütmək üçün böyük əhəmiyyətə malikdir.

Görünür, Hun çarlığı xəzərlərlə münasibətində istisna deyildir. Belə asılılıq formaları xəzərlərin tabeliyində olan digər tayfalar, məsələn, başında Kubratın oğlu Batbay olan Kuban bulqarları üçün də mövcud idi. Beləliklə, Xəzər dövləti öz daxili quruluşunu toxunulmaz saxlayan və hətta xəzər xaqanlığının ali hakimiyyətinə tabelik hüdudlarında xarici siyasət müstəqilliyinin müəyyən hissəsini saxlamış geniş tayfa federasiyası şəklində formalaşmışdı.

Dissertasiyanın **II fəsli "Xəzərlərin Cənubi Qafqaza (Azərbaycana) yürüşləri"** adlanır. Fəslin birinci paraqrafı Xəzərlərin Cənubi Qafqaza yürüşlərindən bəhs edir.

İrana ilk yürüşün uğursuzluğu İraklini müttəfiq axtarmaq məqsədilə Bizansın köhnə dostları – türkütlərə (xəzərlərə) müraciət

[1] Azərbaycan tarixi, II cild,Bakı, Elm, 1998, s.183

etməyə məcbur etdi. Bununla bağlı olaraq, Bizans mənbələrində xəzərlər haqqında ilk qeydlər meydana gəlir. Müqavilə bağlandı və elə həmin 626-cı ilin sonunda «şimal şahı» İrana qarşı öz qardaşı oğlunun – şad - başçılığı altında qoşun göndərdi. O, Albaniya və Atropatenaya daxil oldu, böyük dağıntılar törətdi və çoxlu əsir tutdu. Şad Araz çayının sahilində dayandı və oradan Xosrov Pərvizə imperator İrakli ilə türkütlərin ittifaqı haqqında məlumat və farslar tərəfindən tutulmuş Bizans vilayətlərini boşaltmaq və bütün əsirləri qaytarmaq tələbi ilə səfir göndərdi. Fars şahı buna cavab olaraq hər şeydən əvvəl İranın türkütlərlə qədim dostluq münasibətləri və hakim ailələri arasında nigah əlaqələrini xatırlatdı. Məlumdur ki, Xosrov Ənuşirəvan xaqan İstəminin qızı ilə evlənmişdi. O, yalnız şadı öz dövlətindən qovmaqla deyil, həm də xaqanın özünün torpaqlarına hücum etməklə hədələdi.

Şad tərəfindən Cənubi Qafqaza yürüşdən əldə etdiyi, tərkibində əsir, mal-qara, qızıl, qab-qacaq, qiymətli libaslar olan böyük qənimət yabqu-xaqanın tamahını o qədər oyatdı ki, o özü farslara qarşı hərəkət etmək qərarına gəldi. Buna görə o, tabeliyində olan bütün tayfa və xalqlara hazırlaşmağı və silahlanmağı əmr etdi.

Türkütlərin Cənubi Qafqaza ilk yürüşü, çox güman ki, İranın diqqətini Bizansdan yayındırmaq və İrakliyə yeni müttəfiqi ilə birlikdə müharibəni bərpa etməyə hazırlaşmaq imkanı vermək məqsədi güdürdü. Bu vəzifə, sonrakı hadisələrin gedişindən göründüyü kimi, yerinə yetirildi. İrakli qoşun topladı və yenə zərbə endirməyə hazırlaşdı.

Türkütlərin qoşunu birinci növbədə Dərbəndə hücum etdi. Alban tarixində deyilir: "Yırğalanan dənizin dalğaları kimi türkütlər Çora şəhərinə (Dərbənd) hücum etdilər və onu yerlə-yeksan etdilər". Paytaxt Partava qaçmış Alban sakinlərini Çora haqqında deyilənlərdən dəhşət bürümüşdü. Dəhşətli düşmənin zülmünə müqavimət göstərməyə ümidi olmayan sakinlər öz var-dövlətini qoyub xilas olmaq üçün Artsax (Qarabağ) dağlarına qaçdılar. Türkütlər qaçanların bir hissəsini Kalankatuyk kəndi yaxınlığında dağ ətəyində yaxaladılar.[1]

Gürcü salnamələri də xəzərlərin Tiflisə yürüşü haqqında məlumat verir. Tiflisdən gedərkən İrakli Kaxetiyanın eristavı Adernazeni Gürcüstanın mtavarı təyin etdi və ona Tiflisi verdi. Yabqu Tiflis qalasını tutub, onun başçısını əsir aldıqda dərisini soydular və onu İrakliyə Qardabana göndərdi. Mtavar Stefan bu şəkildə öldürüldü.

[1] Kalankatuklu M. Albaniya tarixi, Bakı, Elm, 1993, s.45-46

Salnaməçi yazır ki, allah Stefanı xristianların düşməni kafirlərin dostu olduğuna görə cəzalandırdı.[2]

II fəslin II paraqrafı **"Xəzərlərin yürüşləri dövründə Azərbaycanın siyasi vəziyyəti"** adlanır. Bu fəsildə Azərbaycanın Xəzər xaqanlığı, ərəb-xəzər müharibələri dövründə siyasi vəziyyəti öyrənilir.

Mehranilərin Albaniyaya gəlişi siyasi vəziyyətdən irəli gəlmişdi. Onlar xristianlığı qəbul etmiş, yerli alban əyanlarına qohum olmuş, nəhayət alban mədəniyyətini və dilini qəbul edərək albanlaşmışdılar. Sasanilərin istəyinə rəğmən bu sülalə inadla albanpərəst siyasət – Albaniyanın müstəqilliyi siyasətini yürüdürdü.

Mehranilər Albaniyada 603-cü ilə yaxın qərarlaşsalar da, bütün ölkənin tam hüquqlu hakimi, Albaniyanın ilk böyük knyazları kimi yalnız 630-cu ildən fəaliyyət göstərməyə başladılar.

591-ci ildə İranla Bizans arasında müharibə başa çatdı. Həmin ildə bağlanan müqaviləyə görə, İrəvan növbəti parçalanmaya məruz qalsa da, Albaniya belə aqibətdən yaxa qurtara bildi. Lakin ölkəni İran mərzbanları idarə etməkdə idi. 603-629-cu illərdə iki imperiya arasında hərbi əməliyyatlar yenidən başlayanda, Albaniya bu müharibəyə cəlb olundu.

603-604-cü illərdə İran-Bizans müharibələrindən istifadə edən Albaniya əhalisi Sasani hökmranlığına qarşı ayağa qalxsa da, bu üsyan II Xosrov tərəfindən amansızlıqla yatırıldı.

Albaniyaya sahib olmaq istəyən hər iki rəqib imperiya burada yalnız siyasi deyil, iqtisai məqsədlər də güdürdü. 625-ci ildə İrakli xəzərləri köməyə çağırdı. Mənbələrdə verilən məlumatlara görə, Xosrovun hakimiyyətinin 36-cı ilində İrakli «Çola qapılarını açmaq, müxtəlif barbar xalqlarını dəvət etmək və onlarla birgə məğrur Xosrovu qovmaq qərarına gəldi. Bu məqsədlə o, öz elçisi Andreyi böyük vədlərlə xəzərlərin yanına göndərdi. İranlılar isə öz növbəsində Balkanlarda hökmranlıq edən avarlarla ittifaq bağlayıb onların diqqətini Konstantinopola cəlb etməyə nail oldular.

İraklinin 623-628-ci illərdə etdiyi uğurlu yürüşlər İran üzərinə qələbəni təmin etməklə yanaşı, Bizansa onun bidətçi Şərq əyalətlərini qaytarmış oldu. İrakli Bizans imperiyasında, eləcə də ona tabe Qafqaz ölkələrində xalkidonçuluğu bərpa etməklə kilsə birliyinə nail olmaq qərarına gəldi.

---

[2] Артамонов М.И. Göst. əsəri, s.107

Albaniyanı hələ də İran mərzbanlarının idarə etdiyi bu dövrdə Girdiman hakimi Varaz Qriqor özünü İraklinin vassalı elan etdi. Yeni süzereni və onun dini olan diofiziliyi qəbul etməklə bu knyaz bütün Albaniyanın tam səlahiyyətli hakiminə çevrilirdi. Lakin beynəlxalq meydanda baş verən dəyişikliklər, görünür, İraklnin Varaz Qriqora verdiy hüquq və səlahiyyətləri alban hökmdarının həyata keçiriməsinə mane olmuşdu. Belə ki, bu vaxt İran şahı II Xosrov öldürülür, taxta 628-29-cu ildə İrakli ilə sülh bağlayaraq Xosrovun tutduğu torpaqları Bizansa qaytaran II Qubad çıxır. Albaniya yenidən İranın təsir dairəsində qalır. Bununla belə ölkənin faktiki sahibləri – xəzərlər olurlar.

Ölkənin faktiki sahibinə çevrilən xəzərlər alban feodallarından, əvvəllər Sasanilərin xəzinəsinə keçirdikləri dövlət vergilərinin indi onlara verilməsini tələb edirdilər. Albaniyanın, bu dövrdən başlayaraq, həmçinin Xəzər adlandırılan qədim paytaxtı Qəbələdə möhkəmlənmiş xəzərlər, solsahil Albaniyasını tamamilə ələ keçirə bilmişdilər. Lakin məhz bu dövrdə Albaniyanın hüdudlarından kənarda ölkənin siyasi həyatında həlledici rol oynayan hadisələr baş verdi. Beynəlxalq vəziyyət – İranda taxt-tac üstə gedən çəkişmələr, Bizansda xalkidonçularla monofizitlər arasındakı mübarizə bu ölkələrin diqqətini şimal sərhədlərindən, uzaq Albaniyada baş verən hadisələrdən yayındırmış oldu.

VII əsrin 30-cu illərinin əvvəllərində Xəzər dövlətində Cebu xaqanın öldürülməsi ilə nəticələnmiş ara münaqişələri xəzərlərin Albaniyadakı ağalığına son qoyub, ölkəni dəhşətli talandan xilas etdi. Beləliklə, tarixin iradəsi ölkəni müstəqillik yoluna çıxartdı. Suverenliyin qazanılmasına iki rəqib imperiyanın – Bizansın və İranın öz aralarında apardıqları müharibələrdən yorulması və əldən düşməsi də kömək etdi.

İkinci fəslin **"Ərəb-xəzər müharibələri və onların Azərbaycan üçün nəticələri"** adlanan üçüncü paraqrafında ərəb-xəzər müharibələrinin Azərbaycana təsirindən bəhs olunur.

Ərəblərin Cənubi Qafqazda möhkəmlənməsi xəzərlərlə yeni toqquşmanın yaranmasına səbəb oldu. Xəzərlər sonradan ərəblərə qarşı yalnız müstəqil deyil, həm də Bizansın müttəfiqi kimi çıxış edir və onu tam məhv olunmaqdan xilas edirlər. Xəzərlər dəfələrlə ərəb qüvvələrini özünə cəlb etmiş və bununla da öz müttəfiqinə məğlubiyyətdən çəkinərək yeni zərbələrə hazırlaşmağa imkan yaratmışdı.

Hələ 692- 93-cü ildə Məhəmməd ibn Oqbay Dərbənd keçidini tutmuşdu, lakin, görünür, oranı saxlaya bilməmişdi. 706-7-ci ildə Məsləm Azərbaycanın şəhər və qalalarını işğal edərək Dərbənd yaxınlığındakı xəzər kəndlərinə hücum etdi. Təbərinin verdiyi başqa

məlumata görə, 708-9-cu ildə o dövrdə xilafətin Cənubi Qafqaz torpaqlarının başında duran Məhəmməd ibn Mərvan yenə Dərbəndi ələ keçirtdi. Bu çağırışa xəzərlər yalnız 710-11-ci ildə yeni imperator Filipi təsdiq edərək Bizansla işlərini qurtardıqdan sonra cavab verdilər. Onlar Albaniyanı tutmağa çalışdılar və Dərbəndi və ölkənin şimal sahil hissəsini tuta bildilər, lakin bu uzun çəkmədi. 713-14-cü ildə Məsləm Dərbəndi yenə aldı.[1] Gevonda görə, bu şəhər hunların əlində idi,[2] "Dərbəndnamə"yə görə burada üç minlik xəzər qarnizonu yerləşirdi və o, üç ay müddətinə ərəblərə qarşı müqavimət göstərdi. Məsləm xəyanət nəticəsində bu qalanı ələ keçirə bildi. Müdafiəçiləri öldürərək ərəblər qala divarlarını dağıtdılar, çünki Dərbəndi saxlamağın mümkün olmadığını hesab etdilər.

Məsləmi geri oturtmuş xəzərlər Albaniyaya soxuldular. Xəlifə Ömərin (717-720) dövründə onlar indiki Azərbaycanın şimal hissəsində ağalıq edirdilər.[3]

727-28-ci ildə Məsləm Azərbaycan tərəfindən xəzərlərə qarşı yollandı və İbn əl-Əsirin dediyinə görə, böyük qənimətlə və əsirlərlə qayıtdı. 728-9-cu ildə Dəryal keçidi vasitəsilə yürüş etdi və Xəzər dövlətinə daxil olaraq Məsləm xaqanla görüşdü və təxminən bir ay onunla vuruşdu. Leysan yağışların olması üzündən ərəblər əsaslı uğurlar qazanmadan qayıtmalı oldular.

Bütün bu yürüşlərə baxmayaraq, xəzərlər Cənubi Qafqazdakı ərəb torpaqlarına yenə hücum edirdilər.

VIII əsrin birinci yarısında xəzərlərin Cənubi Qafqaza hücumu yalnız onların öz maraqları ilə bağlı deyildi. Həm də Bizansın təhriki burada rol oynayırdı. Bu dövrdə Bizansı ərəblər tərəfindən məhv olma təhlükəsi gözləyirdi.

Ərəblərlə 30 illik fasiləsiz müharibə xəzərlər üçün asan keçmədi. Ərəblər dəfələrlə xəzərlər üçün həyati əhəmiyyətə malik Qafqazyanı vilayətlərə hücum etmişdilər. Ərəblər yaşayış məskənlərini dağıdır, mal-qaranı tutur, əhalini məhv edir və ya qovurdular. Əhalinin bir hissəsi şimala, düşməndən uzağa qaçırdı.

---

[1] История ат-Табари. Ташкент, Изд-во «Фан», АН Узб. ССР, 1987, с.38

[2] Гевонд, История халифов Вардапета Гевонда, писателя VIII века, Пер. К.Патканова, СПб., 1862, с.17

[3] Артамонов М.И. Göst. əsəri, s. 205

III fəsil **“Xəzərlərin mədəniyyəti və ictimai-iqtisadi quruluşu”** adlanır və bu fəslin **“Xəzərlərin dini”** adlı birinci paraqrafında bu türk tayfalarının dini görüşləri haqqında məlumat verilir.

Xəzər xaqanlığının beynəlxalq əhəmiyyətinin artdığı şəraitdə onun dövlət dini haqqında məsələ VIII əsrdə böyük siyasi kəskinlik aldı. Qüdrətli Xəzər dövləti həm Bizans imperiyası, həm də ərəb xilafəti üçün arzuolunan müttəfiq idi. Hər iki tərəf xəzərlərə öz dinlərini qəbul etdirməyə çalışırdılar və bununla da, onları öz siyasi maraqlarına tabe etmək istəyirdilər.

Hələ 737-ci ildə Mərvan xəzər xaqanını müsəlman dinini qəbul etdirməyə nail oldu. Lakin məcburi müraciət möhkəm olmadı. Xəzər xaqanı tezliklə öz düşmənlərinin dinindən imtina etdi ki, bu da müsəlmanlığın Xəzər ölkəsinin əhalisi arasında yayılmasına mane olmadı. Bizansla bağlı olan xristianlıq həm qədimdən və həm də geniş şəkildə Xəzər dövlətinin tabeliyində olan (Krım və Qafqazın) vilayətlərində yayılmışdı və xəzərlərə bu tərəfdən ərəb-müsəlmanlar tərəfindən edildiyi qədər olmasa da, təzyiq edilirdi.

Xəzər xaqanlığının özündə sosial-iqtisadi münasibətlərin yeni formaları hakim sinfin müvafiq dini ideologiyaya ehtiyacını tələb edirdi ki, bununla da Xəzər dövlətinin daha proqressiv vilayətlərində – Krım və Qafqazda – xristianlıq və müsəlmanlığın uğurları izah edilir. Yalnız patriarxal – qəbilə quruluşunu saxlamış köçərilər arasında köhnə bütpərəst (çoxallahlıq) dini qalmaqda idi və xaqanlıq da köçərilərə əsaslanan öz babalarının dininə inamını saxlayırdı. Bu din VII əsrdə hun – savirlərdəki və ərəb müəllifi İbn Rustenin dediyi kimi, türklərin dininə oxşar bir din idi. Lakin hələ VIII əsrin I yarısında Xəzər dövlətinin qarşısında dilemma yarandı – ya xristianlıq, ya da islam. Xəzərlər, məlum olduğu kimi, üçüncü dini seçdilər, bu din onlara orta əsr sivilizasiya dairəsinə daxil olmağa, həm də mübarizə aparan tərəflər, yəni islam və xristianlıq arasında müstəqil mövqe ilə təmin edən yəhudilik dini idi.

Üçüncü fəslin **“Xəzərlərin ictimai-iqtisadi vəziyyəti”** adlı ikinci paraqrafında xəzər tayfalarının ictimai-iqtisadi quruluşu haqqında bəhs edilir.

Xəzər dövlətində sosial-iqtisadi münasibətlərin formaları haqqında çox az şey məlumdur. İstəxri əhalidən toplanılan təbii vergini qeyd

edir[1]. Onun sözlərinə görə, İtil və onun ətrafında olan şəhər kvartallarının əhalisindən şah və onun saray adamlarının həyatı üçün lazım olan ərzaq və s. vergi qismində yığılırdı.

Xəzərlər və Volqa bulqarlarının təsərrüfat və ictimai quruluşunda mövcud fərqlər o qədər də böyük deyil. 922-ci ildə bulqarların yanında olan İbn Fadlan bizə bu barədə müəyyən məlumatlar verir.

Xəzər dövləti ərazisindən Asiya ilə Avropanı birləşdirən mühüm (qədim zamanlardan) yol keçirdi. Hələ e.ə.VI əsrdə skif və yunan tacirləri Qara dəniz sahilindən Tyan-Şanın şimal ətəyində yerləşən arqi-peyevlərin əfsanəvi ölkəyə qədər düzənliklərə səyahət edirdilər.[2]

Mühüm tijarət yollarının kəsişməsində yerləşən xəzərlər beynəlxalq tijarətdə görkəmli rol oynamağa başladılar.

Dissertasiyanın **"Nəticə"** hissəsində müəllifin tədqiqatlarının yekunları və başlıca ümumiləşdirmələr öz əksini tapmışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1.Xəzərlər haqqında məlumat verən mənbələr.// Tarix və onun problemləri, Bakı 2009, I- II, s.411-420

2.Xəzərlər Cənubi Qafqazda.// Bakı Universitetinin xəbərləri,Humanitar elmlər seriyası, Bakı 2010, IV, s.155-162

3.Xəzərlərin yürüşləri dövründə Azərbaycanın siyasi vəziyyəti. //Gəncə Dövlət universiteti, Elmi xəbərlər, Fundamental, humanitar və təbiət elmləri seriyası, Gəncə 2010, III ,s.143-147

4.Хазары в Северном Кавказе.// Tarix və onun problemləri, Bakı 2011, I,s.20-25

5. Xəzərlərin dini inancları. //Pedaqoji Universitet Xəbərləri (tarix elmləri üzrə), Bakı 2011, II ,s.154-160

6. Хазарский Каганат.// Интеллект.Международный периодический журнал. Тбилиси 2010, №2(37), s.54-58

7. Xəzər-rus münasibətləri.// Beynəlxalq elmi konfrans:"Türk dünyası: dünəni və bu günü" 23-24 may 2011, Bakı 2011, s.111-115

8. Хазары и Дербенд.// AMEA Tarix İnstitutu, Elmi əsərlər, Xüsusi buraxılış, Beynəlxalq elmi konfransın materialları, Bakı 2012 / 40, s.99-106

9. Xəzərlərin Azərbaycan tarixində yeri. //Tarix və onun problemləri, Bakı 2013, I, s.21-25


---

[1] Гаркави А.Я. Сказания еврейских писателей о хазарах и хазарском царстве, СПб, 1874, с.20

[2] Вах: Техов Б.В. Скифы и Центральный Кавказ в VII-VI вв. до н.э., М., Наука, 1980

**Х.И ИЛЬЯСОВА**

## ХАЗАРЫ И АЗЕРБАЙДЖАН

### РЕЗЮМЕ

Диссертация посвящена хазарам и их взаимоотношениям с Азербайджаном.

Во введении обосновывается актуальность темы, научная новизна исследования, цели и задачи, научное и практическое значение, а также раскрываются методы исследования.

В первой главе исследуется вопрос происхождения хазар, их формирование в качестве независимого племенного союза, создание хазарского хаганата и первые периоды существования хаганата.

Во второй главе освещаются походы хазар на Южный Кавказ-Азербайджан, политическое положение в Азербайджане в период этих походов, арабо-хазарские войны и их результаты для Азербайджана.

В третьей главе нашло свое отражение культура и общественно-экономическое положение хазар.

В заключении диссертации приводятся выводы и основные обобщения исследования.

**KHATIRA ILYASOVA**

# KHAZARS AND AZERBAIJAN

## SUMMARY

The dissertation is devoted to the khazars and their relations with Azerbaijan.

In “Introduction” traditionally, the actuality of theme, scientific innovation, theoretical and practical importance of the research are grounded, as well as here are given data about the goals, objects, sources and methods of the research and about its approbation and structure.

The first chapter investigates the origin of the khazars, their formation as tribe union, creation of the khazar khanates, and early periods.

The second chapter investigates the khazars’ marches to the North Caucasus-Azerbaijan and political condition of Azerbaijan during these marches, arabian-khazar wars, and their results for Azerbaijan were analyzed.

The third chapter is devoted to the investigation of culture and socio-economical condition of the khazars.

In “Conclusion”, the author of the dissertation generalizes the main results of the research.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ХАТИРА ИСМАИЛ кызы ИЛЬЯСОВА**

# ХАЗАРЫ И АЗЕРБАЙДЖАН

**Специальность: 5503.02 - Отечественная история**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени
доктора философии по истории**

**БАКУ-2013**